**UOT 94**

# SƏFƏVİ-TOSKANA ARASINDAKI SİYASİ MÜNASİBƏTLƏR
## *(XVI əsrin sonu-XVII əsrin əvvəlləri)*

**Aynur ORUCOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 8 yanvar 2024; çapa qəbul edilmişdir: 24 yanvar 2024; online-da çap edilmişdir: 21 mart 2024.

Received: 8th of January, 2023; accepted: 24th of January, 2024; published online: 21th of March, 2024.

**Açar sözlər:** *Mediçilər, Səfəvi, Toskana, I Ferdinand, Korai, Aralıq dənizi*

### Giriş

XVI əsrin son rübündə Səfəvi taxtında əyləşən Şah I Abbas çətin dönəmdə hakimiyyətə gəldiyindən dövlətin əvvəlki qüdrətini qaytarmaq və itirilmiş torpaqları Osmanlılardan geri almaq üçün fəal daxili və xarici siyasət yeritməyə başladı. Daxili vəziyyətin stabilləşdirilməsi üçün atılan addımlar nəticəsini verməyə başladıqdan sonra bütün diqqətini xarici məsələlərə yönəldən Şah I Abbas bununla bağlı fəaliyyətə keçdi. Məlumdur ki, ölkənin xarici əlaqələrini yenidən aktivləşdirmək və Osmanlı təhlükəsinə qarşı mübarizə aparmaq üçün müttəfiq axtarışında olan Şah I Abbas Avropa dövlətlərinə səfirliklərin yollanmasına və onlarla hərtərəfli əlaqələrin qurulmasına çalışırdı. Bu illərdə Səfəvi dövlətinin Avropaya dair xarici siyasətində əsas istiqamətlərdən biri də İtaliya yarımadasında yerləşən dövlətlər idi. Bunlar arasında isə İtaliyanın siyasi həyatında artıq fəal rol oynamağa başlayan Toskana qrandüklüyü (böyük hersoqluq – A.O.) var idi. Osmanlı dövlətinə qarşı ittifaqın yaranması istiqamətində fəaliyyətlərini daha da intensivləşdirən Şah I Abbas əsrin sonlarına doğru artıq Şərqi Aralıq dənizində möhkəmlənmək siyasəti yeridən Toskana qrandüklüyü ilə diplomatik əlaqələrini inkişaf etdirməkdə maraqlı idi.

### 1. Əsrin sonlarına doğru gecikən əlaqələr

XVI əsrin əvvəllərində Azərbaycan torpaqlarında Səfəvi dövləti qurulan zamanlarda Şah I İsmayılın xəbərləri bütün Avropaya səs salmışdı. Səfəvi dövlətinin Şərqdəki siyasi və hərbi qüdrəti bir çox Avropa dövlətini Osmanlı təhlükəsinə qarşı şərqdə yeni bir müttəfiq qazanmaqla bağlı istəklərini reallaşdırmağa şərait yaratmışdır. Bu müttəfiqliyin qurulmasında italyanlar daha çox canfəşanlıq edirdilər. Lakin niyə görə Səfəvi-Toskana münasibətlərinin qurulması XVI əsrin əvvəllərində deyil, məhz əsrin sonlarına doğru gerçəkləşmişdi? Bəs bu zamana qədər şərqdə böyük bir imperiya olan Səfəvi dövlətinin Toskana ilə siyasi əlaqələrinin tarixi hansı şəkildə mövcud olmuş və Sofinin (Şah I İsmayılın –A.O.) bütün Avropaya səs saldığı zamanda Florensiya əhalisi arasında Səfəvi dövləti, Sofi ilə bağlı informasiyalar hansı dərəcədə idi? Səfəvi-Toskana münasibətlərinin təməllərinin formalaşması hansı illərə təsadüf edir və necə informasiya mübadiləsi aparılırdı? Niyə məhz münasibətlərin formalaşması və çiçəklənməsi Şah I Abbasın dövrünə təsadüf edir?

* *elmi işçi, AMEA Tarix İnstitutu*
e-mail: aynur.orucova1995@gmail.com

Şərqdə yeni bir peyğəmbərin meydana çıxması xəbərləri bütün Avropaya yayıldığı zaman Florensiya əhalisi arasında az da olsa məlumatlar var idi. Hətta həmin peyğəmbərin gəlib Avropanın səfil əhalisini də qurtaracağı və varlılardan alıb kasıblara paylayacağı ilə bağlı şayiələr dolaşırdı [4, s. 72]. Lakin XVI əsrin əvvəllərində nə Aralıq dənizində, nə də şərqdəki ticarətlə bağlı maraqları və həmçinin Osmanlı dövləti ilə qarşı-qarşıya dayanmaq üçün bir səbəbi olmayan Toskana respublikası (1115-1532) Səfəvi dövləti ilə əlaqə yaratmağa cəhd etmir, Şərqlə ittifaqın qurulmasının marağında olmayan Florensiya rəhbərliyi buna canfəşanlıq göstərmirdi. Beləliklə, bu iki dövlətin arasındakı siyasi əlaqələrin yaranması əsrin sonlarına doğru gecikirdi.

## 2. Toskana böyük hersoqluğunun siyasi vəziyyəti

Toskana dövlətində yalnız Mediçilərin hakimiyyətə gəlməsindən və Böyük hersoqluq qurulduqdan sonra Səfəvi dövləti ilə siyasi-diplomatik əlaqələr yaradılmağa cəhd edilmişdir. Toskananın ilk böyük hersoqu titulunu alan I Kozimo bu statusa sahib olduqdan sonra hakimiyyətini daha da bərkidir. Belə ki, xarici siyasət və beynəlxalq hökmranlıq statusu səviyyəsində, uzun və mürəkkəb danışıqlardan sonra 1569-cu ilin dekabrında Papa V Piy I Kozimoya onun digər italyan knyazları üzərində üstünlüyünü tərənnüm edən böyük hersoqluq titulunu verməyə razı oldu [5, s. 67]. Bundan sonra artıq Toskananın həm Avropa daxili siyasətində, həm də Şərqlə bağlı siyasətində maraqların artması və intensivləşmə müşayiət olunmağa başladı. Florensiyanın Aralıq dənizində aktiv ola bilməməsinin onun daxilində baş verən siyasi gərginlik və Venesiyanın da dənizlərdə ağalığı ilə əlaqəli olduğunu nəzərə alsaq, bu italyan dövlətinin Avropa siyasi səhnəsində rolu və iştirakı Mediçilərin hakimiyyəti ələ keçirəcəyi zamana qədər məhdudlaşmışdı. Əsasən, regional ölçüyə malik olmasına baxmayaraq, Toskana hersoqluğu, xüsusən XVI əsrin ikinci yarısından etibarən, daha geniş miqyasda nəzərdə tutulan ambisiyalarını nümayiş etdirdi. Əslində, Aralıq dənizi Mediçilərin ən çox maraqlandığı bölgə olsa da, onların ambisiyaları geniş mənada Cəbəllütariqdən kənara Amerika, Afrika və Levanta (Aralıq dənizinin şərq sahilləri – A.O.) qədər uzanırdı [7, s. 93]. Qeyd olunduğu kimi, Toskana böyük hersoqluğunun ən əsas maraq bölgəsi Levant ərazisi idi və bu bölgənin də əksər hissəsinin Osmanlı dövlətinin hakimiyyətində olması hersoqluğu siyasi və iqtisadi ambisiyalarını reallaşdırması üçün həm siyasi müttəfiq, həm də ticari ortaq arayışında sultanın torpaqlarının digər tərəfinə baxmağa məcbur etdi. Artıq böyük hersoq I Françesko Hindistanla da ticarətin gətirəcəyi üstünlüklər barədə maraqlanmağa başlamışdı və bu zamanda portuqalların nəzarət etdiyi Hind adalarında olan florensiyalı Filippo Sassetti ilə də yazışmalar aparılırdı. Bu yazışmalarda Sassetti Florensiyaya tez-tez dünyanın o bölgəsində olan inanılmaz zənginliklər və Toskana ticarəti üçün iqtisadi potensialın nə ola biləcəyini açıqlayan məktublar göndərirdi [6, s. 208]. Lakin I Françeskonun ani ölümü Şərqə olan niyyətlərini gerçəkləşdirməyə imkan vermədi və ancaq qardaşı Ferdinanda bunu reallaşdırmaq fürsəti verdi.

Səfəvi dövlətinə xüsusi maraq Ferdinand Mediçinin hələ kardinallığı zamanında (1562-1587) yaranmışdı. Papa XIII Qreqori tərəfindən kardinallığa təyin olunan Ferdinand Levant ərazisi və digər Şərq torpaqları barədə sahib olduğu səlahiyyətlər sayəsində müxbirlər və casuslar vasitəsilə bilgilər toplamağa çalışırdı. Beləcə Ferdinand kilsənin, xüsusilə Levant və Səfəvilərə dair marağında olduğu bir zamanda Şərqin "Kardinal Qoruyucusu" olaraq vəzifələrini yetirirdi ki, bu da Şərqə dair kilsənin planlarını və istəklərini özününkiləşdirmək halına gətirdi və böyük hersoq olduğu zamanda özünün xarici siyasətinə köçürdü [7, s. 207]. Ferdinand 1587-ci ildə taxta keçdikdən sonra o zaman Səfəvi ərazisindən geri dönən Vekkietti ilə dərhal təmasa keçdi, onun vasitəsilə şaha portuqal-hind adaları marşrutu üzərindən silah və hərbi-texniki yardım göndərmə imkanlarını araşdırmağa başladı [3, s. 87]. Vekkietti 1589-cu ildə İspaniya kralına yazdığı hesabatında da

Ferdinand Mediçini öz ağası kimi gördüyünü, həmçinin 1588-ci ildə də Florensiya hersoqunun əmrlərini katib Usimbardidən aldığını bir məktubunda yazaraq özünün tam papalıq elçisi deyil, Ferdinandın elçisi kimi hərəkət etdiyini göstərmişdir. Lakin sonradan İspaniya kralının yuxarıdakı plana qarşı çıxması ilə bu gerçəkləşmədi [7, s. 208-211].

Qeyd olunmalıdır ki, əslində Ferdinand Toskana böyük hersoqu olaraq ilk cəhdlərindən biri kimi Osmanlılara qarşı yaradılacaq hərbi ittifaqa öncüllük etmək istəmişdi. Səfəvi dövləti ilə əlaqələrin inkişaf etdirilməsi təkcə osmanlılara qarşı hərbi ittifaqın qurulması məsələsi ilə kifayətlənmirdi. Həmçinin hersoq Livornonu Aralıq dənizində önəmli liman olaraq inkişaf etdirməyə istiqamətlənmiş siyasətini reallaşdırmaq istəyirdi ki, bu planda da səfəvilərlə ticarət münasibətləri ön planda dayanırdı. Ferdinandın bu strategiyasının tətbiqi ilə bağlı 1591 və 1593-cü illərdə Livorno qanunları Səfəvi tacirlərini şəhərdə ticarət etmək üçün icazəsi olanlar kimi müəyyən etmişdi [7, s. 43].

Sonrakı illərdə hersoq Toskanaya daha yaxın məsələlərlə: İspaniya ilə baş verən gərginliklər, Fransada davam edən vətəndaş müharibəsinə müdaxilə və bəzi digər daxili problemlər ilə məşğul olduğundan Levanta olan marağına intensivlik qazandıra bilmədi, Şərq və Səfəvilərlə bağlı olan planlarını bir müddətə tərk etmək məcburiyyətində qaldı. Bununla belə, artıq diqqətini Levanta yönəltdiyində Səfəvi şahı planlarında ən vacib şəxs oldu. Belə ki, Səfəvi hökmdarının avropalı müttəfiqlər tapmaq, qərb tacirlərinə də böyük fürsətlər vermək siyasəti I Ferdinandın iqtisadi və ticari istəkləri ilə uyğun idi. Səfəvi dövləti ilə bağlanılacaq ittifaqın osmanlılara qarşı müzəffər bir savaşa yol açmaq ümidi də hersoqu daha hücuma meyilli bir hala gətirmişdi, çünki Suriya və Kipr bölgəsi arasında Levantda bir qədər torpaq əldə etməyi də istəyirdi [6, s. 209].

### 3.Toskana ilə münasibətlərin qurulması

Toskana hersoqu I Ferdinand ilə eyni ildə (1587) hakimiyyətə gələn Şah I Abbas Avropa dövlətləri ilə münasibətləri yenidən intensivləşdirməyə və düzənə salmağa əsrin sonunda başlamışdı. Artıq tam əminliklə osmanlılara qarşı ittifaq yaratmaq üçün dəqiq addımlar atmaq və Avropa dövlətlərini buna cəlb etmək vaxtı çatmışdı [1, s. 312]. Şah I Abbasın qərb siyasətində önəmli fiqur olan I Ferdinandın da eyni maraqla Səfəvilərə doğru yönəlməsi ilə münasibətlərin inkişafı onun, yəni hersoqun səltənətinin son on ilinə təsadüf etdi. 1599-cu ildən 1609-cu ilə qədərki illərdə Aralıq dənizi ilə əlaqəli siyasətinə qərarlı bir şəkildə müdaxilə etdi, dövlətin böyüklüyü və qüvvələri nəzərə alındığında gözlənilməz ambisiyalar nümayiş etdirdi. Bununla da, I Ferdinandın "böyük güc" siyasətində Səfəvi dövləti əhəmiyyətli rol oynamağa başladı [7, s. 220]. Hersoq ilə şah arasında bu münasibətlərin intensivləşməsi M.Korainin Mediçi sarayında peyda olması və Səfəvi şahının elçiliyinin Florensiyaya gələcəyini bildirməsi ilə başlayır. Belə ki, 1599-cu il 17 dekabrda Mediçi sarayında olan Korai bu elçiliyin tez bir zamanda gələcəyini bildirmişdi. Həmçinin o, Toskana hersoqunun adının Səfəvi dövlətində *"çox bilinən, tanınan və hörmət edilən"* olduğunu qeyd etmişdi [7, s. 211].

XVI əsrin sonlarında ispanlar, maltalılar və florensiyalılar osmanlıların Rumelidə başlarının qarışıq olduğu bir vaxtda Əlcəzair, Tunis və İstanköyü vurmaq üçün donanmalarını birləşdirdilər. Yusif Sənan Cığalazadə 50 gəmi ilə bunların hərəkətlərini nəzərə alaraq İtaliya sahillərini vurdu. Bu zaman isə Florensiya gəmiləri İstanköy adasına zərər vurmuşdu, eyni zamanda Saqqız adasına olan hücum da florensiyalıların istədiyi kimi nəticələnməmişdi, osmanlı qüvvələrinin əks hücumu ilə Toskana qüvvələri geri çəkilməyə məcbur olmuşdu. Bununla artıq Toskana da osmanlıya qarşı düşmənçiliyini göstərmiş oldu [2, s. 262]. Əslində, Şah I Abbasın da Qərb siyasətində istədiyi bu idi. Deməli, iki cəbhədə müharibə aparmaq siyasətində Toskana artıq ilkin addımları atmışdı [3, s. 86]. Toskananın osmanlıya qarşı düşmənçilik xəbəri Səfəvi sarayına dərhal çatmışdı və həmin

ilin sonunda 17 dekabrda Mediçi sarayında peyda olan M.Korai İsfahandan Toskanaya səfir gələcəyi xəbərini yetirmişdi. Korai burda Ferdinand tərəfindən xüsusi rəğbət gördü və onu diplomatik nümayəndəsi kimi geriyə göndərdi. Florensiyada Koraiyə diplomatik pasport verildi. Belə ki, ona verilən pasport və icazədə qeyd edilirdi ki, bəzi xidmətləri yerinə yetirmək üçün Suriyaya göndərilən cəngavər Mikelancelo Korai Səfəvi dövlətinə getmək fürsətini dəyərləndirə bilər. "*Səfərinə bu məktubla davam etdirməsinə qərar verdik, beləcə danışacağı bütün şahzadələr və lordlar onu bizim tərəfimizdən göndərilmiş bir adam olaraq tanıya biləcəkdilər....bu məktubu imzaladıq və möhürlədik*" [3, s. 88]. Beləcə Korai Ferdinandın şərq siyasəti ilə bağlı Hələb paşası, ona bağlı üsyançılar və Şah I Abbasın yanında diplomatik elçi oldu.

1601-ci ildə Antoni Şerlinin müşayiəti və Hüseyn Əli bəy Bayatın başçılığı ilə Avropaya göndərilən Səfəvilərin elçi heyətinə Florensiyaya da getmək tapşırılmışdı. Belə ki, bu səfirlik heyəti 16 mart 1601-ci il tarixində Florensiyaya daxil oldu. Bu zaman Ferdinand və bütün ailəsi Piza şəhərində olduğundan onları hersoqun nümayəndəsi Enea Vaini qarşıladı. Elçilər və onları müşayiət edənlər Pitti sarayında qaldılar və bir neçə gün sonra Ferdinandla görüşmək üçün Pizaya getmələrinə icazə verildi [7, s. 224]. Ferdinand sarayına gəlmiş bu elçi heyəti ilə bağlı məlumat əldə etmək istəyirdi. Bu səbəbdən Enea Vaini 16 mart tarixində Pizaya Səfəvi elçiləri ilə bağlı bir məktub yolladı. Vaini Antoni Şerli ilə danışdıqdan sonra hersoqa yazdığı məktubda bildirir ki, bu səfirlik İtaliyada Toskana hersoqu, Papa, Fransa kralı, İspaniya kralından əlavə başqa hökmdarlarla müzakirə etmək üçün əmr almadıqlarını, daha sonra İngiltərəyə və oradan da İrana gedəcəklərini deyirlər. *"Bu ingilisin cismi çox sağlam deyil, ruhunu bilmirəm. Qarışıq italyanca və ispanca danışır. Çox anlaşıqlı bir şəkildə təvazökarlıqla, nəzakətli sözlərlə, xüsusilə Əlahəzrətlərinin nüfuzundan və adından bəhs edir*" [7, s. 224-225]. Elçi heyəti 20 martda Pizaya çatdılar. Pizada qaldıqları müddətdə böyük hersoq onları limanın yeni güclü istehkamlarının tikildiyi Livornoya baş çəkməyə apardı və elçiləri yola salmadan öncə iki dəfə qəbul etdi. I Ferdinand Antoni Şerliyə 700 skudi dəyərində, Hüseyn Əli bəyə isə 300 skudi dəyərində qızıl bir zəncir hədiyyə verdi. 1601-ci il martın 24-də Pizadan Toskananın Romadakı səfiri Covanni Nikkoliniyə göndərdiyi məktubda Böyük Hersoq Papaya Səfəvi elçilərinin Toskanaya gəldiyini və hersoqluq səfərindən sonra Romaya gedəcəklərini bildirməyi tapşırdı. T.Davidenin bildirdiyinə görə, şahın təklif etdiyi müzakirənin əsas məqamlarını ümumiləşdirməklə yanaşı Hüseyn Əli bəy Bayatın nə xarici dil bildiyi, nə də anladığı üçün ingilisin səfərin əsas müzakirəçisi olduğu, ziyarət edəcəyi bütün xristian şahzadələri üçün ümumi bir məktuba sahib olduğu və hersoqa xüsusi bir məktub verdiyi bildirilir. *"Şah I Abbasın I Ferdinand üçün şəxsi bir məktub yazıb-yazmadığı mövzusunda dəqiq bir şey demək mümkün deyil, çünki sənədlər-ən azı indiyə qədər araşdırılanlar, bu məsələdə razılaşmır*" [7, s. 228].

Pizada görüş zamanı xristian hökmdarlar üçün təklif edilən bir sıra maddələr var idi. Aydın idi ki, burada Toskanaya da xüsusi diqqət yetirilirdi. Bu təkliflərdə Şah I Abbas "ərdəmləri və fəzilətləri ilə buna layiq olan" bütün xristian hökmdarlarına dostluğunu və xoş niyyətini təqdim edir. Ortaq düşmənlərinə qarşı olan bu dostluqdan məmnun olduğunu, müharibənin bütün yükünün onun çiyinlərinə minməyəcəyindən əmin olduqda tezliklə savaşa başlamaq istədiyini bildirirdi. Belə ki, şah Avropanın bütün hökmdarlarını Osmanlı ilə bağladıqları müqavilələrdən imtina etməyə çağırırdı. Həmçinin qeyd edilir ki, xristian hökmdarlar arasında olan bölünmələr osmanlıların qüdrətinin artmasına yol açmışdır. Şah xristian aləminin hökmdarlarını bir-birilərini anlamalarını bütün xoş niyyət və sədaqətlə istəyir, dövlətlərinin və ərazilərinin tamamilə məhv olmasına fürsət verməmələri üçün bu məqsədlə sadiq və sağlam uyğunluqla bir-birilərinə sıx bağlanmaları istiqamətində onun nəsihətlərinə qulaq vermələrini qeyd edirdi. Eyni zamanda əlavə olunurdu ki, şah xristian hökmdarlarını bu müharibəyə başlamağa razı salmaqda olduqca qərarlıdır,

heç gecikmədən 60 min silahlı və bir o qədər də süvari qoşunu, istədiyi zaman isə ondan da çox ordunu döyüşə çıxara bilmə sözünü verir. Eyni zamanda maddələrdə qeyd edilirdi ki, xristian dövlətləri şahla bu konfederasiyanı qəbul etmək istədiklərində türklərə qarşı aparılan bu müharibədə qatılanların heç birinin razılığı olmadan müharibədən geri çəkilmə, hər hansı atəşkəs olması, ya da birbaşa sülh üçün savaşdan geri çəkilmə qanuni olmayacaqdır və bundan ötrü də bir müqavilə imzalanmalıdır. Qeyd olunurdu ki, xristian şahzadələri və ya onların böyük bir hissəsi barışıq yolu ilə də olsa, haqlı səbəbə görə bu müharibədən geri çəkilsələr, məsuliyyət daşıyacaqlar. Onların hamısı qarşılıqlı olaraq bu məsələyə əməl etməyə borclu olacaqlar [7, s. 230-231]. Həmçinin şahın bu təkliflərində ölkəsinin hər bir xristian üçün açıq olduğu, onların hər birinin mühafizə və qoruma ilə gələ, qala və geri qayıda biləcəkləri, həmçinin onların şəxsiyyətləri, malları, mülkləri və işləri üçün də çox geniş imtiyazlar veriləcəyi bildirilirdi. "*Onlar bununla onlara öz dinlərini açıq və ya gizli şəkildə yerinə yetirmək üçün yer seçmək və ya başqa yerlər yaratmaq üçün hər cür sərbəstlik verirdi və heç bir maneə, təqib və narahatlıq olmadan istədiklərini edə bilərdilər*" [7, s. 231]. Antoni Şerli və Hüseyn Əli bəy Bayat səfirliyinin Florensiya ilə münasibətlərinin qurulmasında olan təsiri vacib idi. Belə ki, hər iki dövlətin rəsmi şəkildə təmasları baş verirdi. Lakin səfirliyin istənilən uğuru bütün Avropa dövlətləri arasında qazana bilməməsi, sonrakı illərdə də Şah I Abbas tərəfindən ardıcıl olaraq səfirlərin Avropaya göndərilməsini davam etdirdi.

Qeyd olunmalıdır ki, Şərqdə Şah I Abbasın osmanlılara qarşı uğurlu müharibə aparması xəbərləri Avropada, xüsusilə Florensiyada yayılmışdı. Bu illərdə I Ferdinandın Levant siyasətində Suriya ərazisi olduqca böyük əhəmiyyətə sahib bir yer idi. Bu ərazini ya tamam tutmaq, ya da ona tabe olacaq bir "dövlət" qurulması siyasəti aparırdı. Toskana hersoqunun ilkin məqsədi Levantda özünəməxsus bir ərazi yaratmaq və ya heç olmasa Toskana gəmiləri və tacirlərinin sərbəst hərəkətinə imkan yaratmaq idi. O, Osmanlı dövlətini yetəri qədər istiqrarsızlaşdırmağı bacarmaq üçün Səfəvi dövlətinin yardımının nə qədər vacib olduğunu bilirdi. Çünki Şah I Abbas Qafqazda və Şərqi Anadoluda uğurlu müharibə aparırdı. Suriyada da Əli Canbuladın üsyanı Ferdinandın Levant siyasəti üçün olduqca vacib hadisə idi. I Ferdinand Suriya siyasəti ilə bağlı siyasətini həyata keçirmək üçün o ərazilərə səfir-müxbir yollamaq qərarına gəlir ki, həmin şəxsin vəzifələrindən biri də Səfəvi ərazisinə getmək və şahla görüşmək idi. Yuxarıda qeyd olunduğu kimi, bu iş üçün Mikelancelo Korai seçilmişdi. Bu, Korainin Səfəvi ərazisinə ikinci səfəri olacaqdı ki, artıq Toskana səfiri kimi gedəcək və orda bir neçə il də yaşayacaqdı. Bu səbəbdən dolayı Korai iki hökmdara xidməti ilə fərqlənirdi. Bu da onu sələfləri Zeno, Barbaro və müasiri Antoni Şerli ilə eyniləşdirirdi [3, s. 81].

Toskana hersoqu adından Səfəvi hökmdarının adına yazılan 1607-ci il 25 yanvar tarixli məktubda Şah I Abbasa müraciəti maraq doğurur. Məktubda Toskana hersoqunun titulları sadalandıqdan sonra Şah I Abbas osmanlıları məhv edən, xristianların ən mehriban dostu adlandırılır. "*...ən yüksək, ən güclü və yenilməz olan Lord Şah Abbas, Allah onu bütün hökmdar nəsli ilə birlikdə yüz illər boyunca xoşbəxt şəkildə qorusun"* [7, s. 244]. Belə ki, bu məktubda I Ferdinand Şah I Abbası osmanlılara qarşı apardığı uğurlu müharibələr münasibətilə xristian hökmdarlar arasında uca hesab edildiyini, düşmənə qarşı zəfərlərinin davamlılığını arzu edir, eyni zamanda bir neçə il öncə şah tərəfindən göndərilən elçiliyin fəaliyyətini xüsusi hörmətlə qeyd edir. Məktubda hersoq öz nümayəndəsi tərcüməçi suriyalı Koraini göndərdiyini, hər zaman onun xidmətinə hazır olduğunu, kiçik donanması ilə dənizlərdə osmanlı qüvvələrinə qarşı mübarizəsinə dair nə düşündüyü və nə etdiyi mövzusunda Korainin onu məlumatlandıracağını və özünün ona güvəndiyini qeyd edir [3, s. 89; 7, s. 244]. Bu, Korainin Suriyada ona tapşırılan bütün

işləri başa vurduqdan sonra Səfəvi şahına aparmalı olduğu məktublardan birinin qaralamasıdır. Əli Canbulad üsyanın yatırılması səbəbi ilə Səfəvi ərazisinə qaçdı. 9 dekabr 1607-ci ildə Mikelancelo Korai Hələbdən yazdığı məktubda həm Böyük Hersoqun ona verdiyi tapşırığı yerinə yetirmək, həm də şahın yanına qaçan Əli Canbulada kömək etmək üçün ən qısa zamanda İrana gedəcəyini bildirirdi. Korai aprelin 8-də Şah I Abbasın sarayının yerləşdiyi Mazandaran vilayətinə gəldi və üç gündən sonra şah tərəfindən qəbul edildi. Korai hersoqun donanmasının qazandığı zəfərləri anlatmış, Kiprə olan uğursuz hücumu isə bəzəkli cümlələrlə ucaldaraq bəhs etmiş, Əlcəzairdəki Bonanı ələ keçirməsini bildirərək bu məsələnin sultan üçün olan mənfi nəticələrini şişirtməklə şaha çatdırmışdı. Şah I Abbas onu diqqətlə dinləmiş və İsfahana çatdıqda hersoqa məktubunu tərcümə etdirəcəyini, ona cavab məktubu yazacağını və geri göndərəcəyini bildirir. Korai bir neçə il şah sarayında qalmalı olur. Korai Səfəvi sarayında vasitəçi, müzakirəçi və saraya gələn bütün avropalı elçilərin şəxsi tərcüməçisi oldu. Hətta papadan gələn məktubları da şah üçün latıncadan farscaya çevirdi. Buna görə də, özünə İsfahandakı karmelitlərlə çəkişmə yaratdı. Korainin Florensiya ilə yazışmaları getdikcə kəsilirdi və Florensiya sarayına heç kim Korainin Səfəvi sarayındakı rəsmi vəziyyətinin xərclərini öhdəyə götürmürdü. I Ferdinand öldükdən sonra taxta keçən II Kozimo Toskana diplomatik elçisi Korainin rəsmi statusunu tanımağı rədd etdi və hətta onun diplomatik vəziyyətini də qanundankənar hesab etdi [3, s. 91]. Korai Səfəvi sarayında 1613-cü ilə kimi qaldı və Şah I Abbasın onun vəzifəsindən aralanmasını istədikdən sonra yeganə çıxış kimi qaçmağı seçdi. 1614-cü ildən etibarən artıq Korai haqqında bilgi əldə etmək çətinləşir. Beləcə onun Səfəvi sarayındakı fəaliyyəti bitmiş oldu.

I Ferdinandın 1609-cu ildə vəfatından sonra Toskana taxtına çıxan II Kozimo atası kimi Levant siyasətini davam etdirməyə başladı. Osmanlı ərazilərinə və gəmilərinə hücumlar təşkil etdi. Osmanlılara qarşı hərbi əməliyyatlar aparıldığı bir zamanda da Səfəvi şahının yanına qərb dövlətlərindən səfirlər göndərilir, məktublar yollanılırdı.

Robert Şerlinin başçılığı altında Avropaya göndərilən Səfəvi elçiliyi 1609-cu ilin avqust ayının 20-də Florensiyaya çatdı. Robert Şerli yalnız 3 gün sonra hersoq tərəfindən qəbul edildi. Toskana böyük hersoqu elçinin gələcəyi xəbərini alanda onu böyük salonun ortasında qarşıladı. Robert Şerli yüksək səslə və italyan dilində təxminən yarım saat davam edən və böyük hersoqu osmanlılara qarşı müharibəyə başlamağa razı salmalı olacağı nitqini etdikdən sonra Şah I Abbasdan göndərilən məktubu da təqdim edir. Böyük hersoq səfiri diqqətlə dinlədikdən sonra onunla nəzakətlə qısa danışıb qapıya qədər ötürür [7, s. 255]. Robert Şerlinin hersoqa təqdim etdiyi məktubda II Kozimonun Fransa sarayı ilə olan qohumluq əlaqələrini bildiyindən şah onun fransız kralını türklərlə olan ittifaqdan çəkilməsinə, daha sonra digər katolik dövlətlərini öz aralarında müharibə aparmağı dayandırmasına və ortaq düşmənə qarşı hər yöndən hücum edib güclərini birləşdirməyə razı salmasını bildirirdi. Şah hersoqa Papanın katolik dövlətlərinin və hersoqun "güclü dəniz qüvvəsi" ilə Suriyaya qərbdən hücum edərlərsə, onun da şərqdən hücum edəcəyi, onların dənizdən hücumunu quruda da özünün izləyəcəyi vədini verirdi. Şahın tələblərinə qarşı Toskana hersoqunun cavabları əslində tamamilə müsbət idi. II Kozimo Fransa kralı ilə danışıqlar aparmağı və digər katolik dövlətlərinin də Osmanlı imperatorluğuna qarşı qüvvələrini göndərməyə razı salmağa çalışacağını bildirirdi. Səfəvi şahına cavab məktubu da yazıldı, bu məktublar Vekkietti tərəfindən farscaya tərcümə olundu. Lakin bu məktublar zamanında şah sarayına çatmadı. Çünki Robert Şerli yalnız 1615-ci ildə şah sarayına qayıda bildiyi üçün 1609-cu ilə aid olan bu məktubla cavab yazan II Kozimonun qeydlərinin şah üçün elə bir əhəmiyyəti qalmamışdı. Belə ki, şaha yazdığı məktubunda II Kozimo şahın diplomatik səfirliyini qəbul etməkdən məmnunluğunu bildirir və gələcəkdə də əlaqəni davam etdirməyə istəkli olduğunu, birlikdə Osmanlı dövlətinə mümkün olan ən böyük zərəri verəcəklərini ifadə edirdi.

1609-cu ildə şah təbəəsi tacir Xoca Səfəri Avropaya göndərməyi qərar verir və bu tacir 1610-cu ilin 5 yanvarında Toskana sarayında olur. Onun hersoqa təqdim etdiyi məktub venesiyalıların malların geri qaytarılması üçün edilən təkidləri qəbul etməkdə istəksiz olacağı halda florensiyalılardan yardım almaq istəyilə əlaqəli idi. II Kozimo venesiyalılarla etdiyi müqavilənin yerinə gətirilməsini təmin edəcəyinə dair güvən məktubu və digər istəklərin yerinə yetirilməsi ilə əlaqəli cavab məktubu hazırlatdı. Göndərilən iki məktubdan biri ticarət məsələləri, digəri isə hersoqun səhvən tutulan erməni tacirlərin itirdikləri malları geri qaytara bilməyəcəyi ilə əlaqəli idi. Hersoq bildirirdi ki, çox güman əsgərlər və dənizçilər tərəfindən yağmalandığı üçün bu malların heç bir zaman onun əlinə çatmayacaq. Bu məktubların Səfəvi sarayına çatması 9 il çəkmişdi [7, s. 262]. Belə ki, Xoca Səfər ölkəyə vaxtında qayıtmamışdı və onun gətirməli olduğu məktublar şaha çox gec çatmışdı. Bununla bağlı Valle qeyd edirdi ki, Şah I Abbas Skalçi keşişinə ona tərcümə etməsi üçün  məktublar və müqəddəs kitablar göndərdi. Məlum olur ki, bu məktublar doqquz il əvvələ aid imiş, yəni 1610-cu ildə yazılıbmış və Səfəvi hökmdarına aparması üçün Xoca Səfərə verilibmiş. Lakin Xoca Səfər heç vaxt geriyə qayıtmır. Valle bildirir ki, onun niyə geri qayıtmaması bilinmir, ola bilsin ki şahdan qorxubmuş. Həmçinin o əlavə edir ki, Xoca Səfər Hindistana gedib və bu yazılar da ona aid bir sandıqdan portuqallar tərəfindən aşkar edilərək Səfəvi şahına göndərilib. Vallenin qeyd etdiyinə görə şaha Papadan, İspaniya kralından, Kardinal Borromeodan, Venesiya dojundan, Florensiya hersoqundan, Modena dojundan, Parma dojundan, Lukka respublikasından və Skalçi Karmelitləri rahiblərinin rəhbərindən yazılmış məktublar görüb. *"Hamısının bir nüsxəsini saxlamaq istədim, lakin yazmama yardım edəcək kimsəm yox idi və tək başıma bu qədərini edə bilməzdim*" [8, s.70-71]. Xoca Səfərin ziyarətindən sonra Şah I Abbas daha Mediçi sarayına başqa diplomatik elçilik göndərmədi.

**Nəticə**

Şah I Abbasın da hakimiyyətə gəlməsindən sonra Səfəvi dövlətinin Avropaya dair xarici siyasətində əsas rol oynayan dövlətlərdən biri Toskana qrandhersoqluğu olmuşdur. Belə ki, əsrin sonlarına doğru Avropaya səfirlik yollanması və Osmanlı dövlətinə qarşı ittifaqın yaranması istiqamətində fəaliyyətlərini daha da intensivləşdirən Şah I Abbas Şərqi Aralıq dənizində artıq möhkəmlənmək siyasəti yeridən Toskana böyük hersoqluğu ilə diplomatik əlaqələrini inkişaf etdirməkdə maraqlı idi. Məlumdur ki, Şah I Abbasın XVI əsrin sonlarında formalaşdırmağa başladığı Avropa siyasəti gələn əsrin ilk illərindən reallaşmağa başlayırdı ki, Toskana ilə də münasibətlərin çiçəklənmə dönəmi XVII əsrin əvvəllərinə düşür. Səfəvi diplomatiyasının Şah I Abbas dönəmində təmasa keçdiyi Avropa dövlətləri arasında, demək olar ki, gerçək bir diplomatik dəstək verən və bərabər şəkildə hərbi hərəkata keçməyə istəkli olduğunu bildirən tək dövlət bəlkə də Toskana böyük hersoqluğu idi. Toskana Levant siyasətini gücləndirmək və burda özünün möhkəmliyini qurmaq üçün Səfəvi dövləti ilə Osmanlı dövlətinə qarşı mübarizəyə olduqca maraqlı idi. Lakin o da qəbul olunandır ki, hələ kiçik armadaya sahib olan Florensiya Şah I Abbasa onun istədiyi böyük yardımı edə bilmirdi. XVI əsrin ikinci yarısından etibarən Səfəvi dövlətini özünün şərq siyasətinin bir parçası halına gətirməyə çalışan Mediçi sarayı bunun üçün addımlar atsa da mövcud beynəlxalq vəziyyət bu əlaqələrin daha da irəliləməsinə imkan vermədi. Belə ki, Səfəvilərlə münasibətlərin inkişaf etdirilməsində olduqca maraqlı olan I Ferdinandın siyasətini xələfləri davam etdirə bilmədilər. Şah I Abbasın ölümü və taxtın Şah I Səfiyə (1629-1642) keçməsi ilə də sələfinin siyasətindən uzaqlaşıldığında Toskana ilə münasibətlər əvvəlki aktivliyində qalmadı.

## ƏDƏBİYYAT


1. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti. (Türkiyə tarixşünaslığında). Bakı: "Turxan NPB", 2020, 520 s.
2. Hammer J.V. Osmanlı İmparatorluğu Tarihi, 2. cilt. İstanbul: İlgi Kültür Sanat Yayıncılık, 2007, 604 s.
3. Federici F.M. A servant of two masters: The translator Michel Angelo Corai as a Tuscan diplomat (1599-1609)//in: Federici F.M., Tessicini D. (eds) Translators, İnterprters and Cultural Negotiators. Palgrave Macmillan, London, 2014. pp. 81-104
4. Floor W. The Early Life of Shah Esmail in Contemporary Published Venetian Sources. the Quarterly Journal of Iranian Islamic Peridod History, 2020,Volume 11, Issue 23, pp.69-100
5. Calonaci S. Cosimo I e la Corte: Percorsi Storiografici e Alcune Riflessioni. Annali di Storia di Firenze// IX, 2014, pp.57-76
6. Trentacoste D. La Diplomazia Levantina e Persiana del Granducato di Toscana nel XVII Secolo // Riforma e Movimenti Religiosi, 2019, pp. 205-214
7. Trentacoste D. Granducato di Toscana e Persia Safavide. İnformazione, Politica e Diplomazia Mediterranea e Levantina Nel XVII Secolo. History. Université de la Sorbonne Nouvelle- Paris III; Università Degli Studi, Teramo, Italie, 2021, 492 p.
8. Valle P. Viaggi di Pietro della Valle il Pellegrino. In Due Volume. Volume Secondo. e-text. La Edizione Elettronica 2021, 945 p.


***Резюме***

***Айнур Оруджева***


***Политические отношения между Сафави и Тосканой.***
***(конец XVI - начало XVII века)***

Во второй половине XVI в., после прихода к власти Медичи, Великое герцогство Тосканское в Италии стало государством, стремившимся играть важную роль на восточных берегах Средиземного моря и в торговле с Индией. Государство Сефевидов занимало уникальное положение в этой политике флорентийского двора. Политические события этого периода объединили интересы Сефевидского и Тосканского государств. Известно, что политическая нестабильность, существовавшая в государстве Сефевидов во второй половине XVI века, ослабила его. По этой причине Сефевидское государство потерпело поражение в войне с Османским государством и потеряло свои территории. Однако такая ситуация сохранялась до восшествия на престол шаха Аббаса I. С приходом к власти шаха Аббаса государство Сефевидов, один из главных акторов международных отношений на Востоке, вновь обрело утраченное могущество. Вернув себе былое могущество, Сефевиды начали новый этап в отношениях с Европой. Шах Аббас I хотел укрепить отношения с различными европейскими государствами. Потому что фактор османского государства был общей целью обеих сторон. Установление отношений с Флоренцией совпадает с периодом правления шаха Аббаса. Великое герцогство Тоскана играло особую роль в европейской политике шаха Аббаса I. Как политические, так и экономические интересы обусловили необходимость создания и развития этих отношений. Установленные в конце XVI в., эти отношения получили дальнейшее развитие в последующие годы. В данной статье анализируется установление этих отношений, продолжающиеся контакты и постепенное их ослабление. В статью включены сведения о шагах, предпринятых Фердинандом I и шахом Аббасом, а также о деятельности Корая. В статье представлена информация о посольстве Кораи, игравшем особую роль в отношениях между Тосканой и Сефевидскими государствами. В статье показано, что отношения между двумя государствами активизировались в начале XVII века и начали ослабевать после второго десятилетия.


**Ключевые слова:** *Медичи, Сефевиды, Тоскана, Фердинанд I, Корай, Средиземноморье*

***Summary***

***Aynur Orujova***

***Political Relations Between Safavi and Tuscany***
***(Late XVI - Early XVII Century)***

In the second half of the 16th century, after the Medici came to power, the Grand Duchy of Tuscany in Italy became a state that sought to play an important role on the eastern shores of the Mediterranean and in trade with India. The Safavid state occupied a unique position in this policy of the Florentine court. The political events of the period united the interests of the Safavid and Tuscan states. It is known that the political instability existing in the Safavid state in the second half of the 16th century weakened the state. For this reason, the Safavid state was defeated in the war with the Ottoman state and lost its territories. However, this situation continued until Shah Abbas I ascended the throne. The Safavid state, one of the main actors in the international relations of the East, regained its lost power with the coming to power of Shah Abbas I. Having regained its former power, the Safavids began a new phase in their relations with Europe. Shah Abbas I wanted to strengthen relations with various European states. Because the Ottoman state factor was a common goal of both sides. The establishment of relations with Florence coincides with the reign of Shah Abbas I. The Grand Duchy of Tuscany had a special role in the European policy of Shah Abbas I. Both political and economic interests have necessitated the creation and development of these relationships. Established towards the end of the 16th century, these relations were further developed in the following years. This article analyses the establishment of these relations, the ongoing contacts and the gradual weakening of these relations. Information on the steps taken by Ferdinand I and Shah Abbas I and the activities of Korai are included in the article. The article provides information about the embassy of Korai, who played a special role in the relations between Tuscany and the Safavid states.

**Key words:** *Medici, Safavid, Tuscany, Ferdinand I, Korai, Mediterranean*

Redaksiya heyətinin üzvü t.e.d., prof. Şükürov Kərim Kərəm oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.